**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON

**№ 141 (1269) 2 avqust - 3 avqust 2016-cı il**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# ZAQATALA: GÖZƏLLİKLƏR DİYARINDA İNKİŞAFIN TƏNTƏNƏSİ

(əvvəli ötən saylarımızda)

### *Tütünçülüyün keçmiş şöhrəti qaytarılacaq... Eləcə Zaqatala fındığının da "qızıl dövrü" başlanır*

**Belə ki, tütünçülüyün inkişaf etdirilməsi məqsədi ilə fermerlərlə geniş maarifləndirmə tədbirləri aparılmış, nəticədə 601,5 ha sahədə tütün əkilmişdir. Artıq sahələrdən məhsul yığımına başlanılaraq 143788 kq yaşıl tütün qurudulmaq məqsədi ilə "İntertobacco" MMC tərəfindən kameralara yığılmışdır.**

Hesabat dövründə 1,5 ton barama istehsal edilməsi nəzərdə tutulsa da, Zaqatala rayonu üçün ayrılmış 95 qutu barama qurdu toxumundan əldə olunan barama qurdunun 67 kümçü ailəsinə paylanılması təmin edilmişdir. Proqnoz tapşırıqlar kümçülər tərəfindən bir neçə dəfə artıq yerinə yetirilməklə, 6 ton 18 kq barama istehsal edilərək "Şəki-İpək ASC"-yə təhvil verilmişdir. Gələcəkdə istehsalın artırılması məqsədi ilə cari ilin payız mövsümündə rayonda 146100 ədəd tut tinginin əkilməsi nəzərdə tutulmuşdur.

Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz yekun nitqində aqrar məsələlərə, xüsusi ilə Zaqatala üçün ənənəvi olan fındıqçılığın, baramaçılığın və tütünçülüyün inkişaf etdirilməsi olduğunu ön plana çəkmişdir. O, tütünçülüyə xüsusi yer verərək demişdir: "Əfsuslar olsun ki, bu sahə uzun illər diqqətdən kənarda qalmışdır. İndi biz tütünçülüyü də bərpa edəcəyik. Ənənəvi bölgələrdə tütünçülüklə məşğul olanlar da buna hazır olsunlar. Dövlət öz dəstəyini verir, verəcək".

> **"... Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir, daxildə proseslər müsbət istiqamətdə getmişdir, islahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız ulu öndərin siyasi xəttinə sadiqik, bu xətti davam etdiririk".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Daha sonra cənab İlham Əliyev rayon üçün xarakterik olan digər sahənin - meyvəçiliyin inkişaf etdirilməsi ilə bağlı öz tapşırıqlarını verərək demişdir: - "Digər kənd təsərrüfatı məhsullarının istehsalı ilə maraqlananda maraqlı bir mənzərə ortaya çıxır. Məlumdur ki, ən çox valyuta gətirən məhsullardan biri də fındıqdır. Ancaq qeyd etməliyəm ki, dövlət fındıqçılığın inkişafına o qədər də böyük dəstək verməyib. Keçən il fındığın ixracından Azərbaycana 90 milyon dollar vəsait gəlib. Fındıqdan sonra ən çox valyuta gətirən məhsul xurmadır. Yəni, bütün bunları biz bilməliyik və bu sahələrə çox ciddi dövlət dəstəyi verilməlidir".

Odur ki, rayonda fəaliyyət göstərən əlaqədar təşkilatlar - yeni yaradılmış kənd təsərrüfatı idarəsi, o cümlədən fermer təsərrüfatları bütün imkanları səfərbər edərək cənab Prezidentin bu sahədə olan tapşırıqlarını yerinə yetirmək üçün səylə çalışmalıdırlar.



### *Ekologiya yenilikləri və meliorasiya tədbirləri*

2016-cı ilin I yarısında rayonda ekoloji məsələlər də diqqət mərkəzində saxlanılmış, ətraf mühitin mühafizəsi məqsədi ilə inzibati tədbirlər həyata keçirilərək 16875 manat cərimə tətbiq olunmuşdur. 2200 ədədi yol kənarlarında olmaqla, 61200 ədəd ağac əkilmişdir. Rayonda 217.5 ha sahədə meşə əkininə xidmət olunmuş, 40.5 ha sahədə isə mədəni meşə əkilmişdir.

Torpaqların sel sularından mühafizə edilməsi, suvarma şəbəkəsinin təmiri və əhatəsinin genişləndirilməsi, suvarma suyundan səmərəli istifadə edilməsinə diqqət artırılaraq 6 kəndin 2101 ha əkin sahəsinin suvarılmasına xidmət edən iki pilləli "Alazan" nasos stansiyasının suvarma şəbəkəsinin bərpası davam etdirilmişdir.

Ölkə Prezidentinin 16 dekabr 2015-ci il tarixli eləcədə, 01 iyul 2016-cı il tarixli "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamlarının icrası olaraq 2016-cı ildə rayonun Muxax, Bəhmətli, Kebeloba, Yengiyan, Çobankol, Aşağı Tala, Yuxarı Tala, Yeni Suvagil, Car, Göyəm kəndləri və Əliabad qəsəbəsində 12 ədəd subartezian quyularının qazılması nəzərdə tutulmuşdur.

### *Abadlıq və tikinti quruculuq işlərinin yeni mərhələsi*

Hesabat dövründə Zaqatala rayonunda bütün maliyyə mənbələri hesabına 5 milyon 916 min manat dəyərində tikinti, təmir və abadlıq işləri görülmüşdür. Keçən müddət ərzində rayon Məhkəməsi üçün yeni inzibati binanın tikintisi davam etdirilmiş, rayonda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün 3 ədəd 45 mənzilli yaşayış binasının, 150 şagird yerlik tam orta məktəbin, 50 yerlik uşaq bağçasının, klub binasının, tibb məntəqəsinin, ATS binasının və digər qurğuların tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.



Əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə rayonda Qarabağ əlilləri və Şəhid ailələri üçün inşa edilən müasir tələblərə uyğun 21 fərdi evdən 13-nün tikintisi başa çatdırılaraq, sakinlərin istifadəsinə verilmiş, 8 fərdi evin tikintisi isə davam etdirilir.

Yarım il ərzində rayonda məktəbəqədər təhsil müəssisələrinin tikintisi və təmiri, onların maddi-texniki bazalarının gücləndirilməsi istiqamətində də işlər davam etdirilərək Fındıqlı kənd uşaq bağçası təmir edilərək yeni inventar və avadanlıqlarla təchiz edilmiş, Yuxarı Tala kənd 2 saylı uşaq bağçasında cari təmir işləri aparılmışdır. Azərbaycan Kənd İnvestisiya layihəsi çərçivəsində Kəpənəkçi kənd tibb məntəqəsi yenidənqurma və əsaslı təmir işləri aparılaraq sakinlərin istifadəsinə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2015-ci il tarixli sərəncamının icrası olaraq Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına şəhərdə 12 çoxmənzilli 5 mərtəbəli yaşayış binalarında təmir-bərpa işləri davam etdirilmişdir. Həmçinin cənab Prezidentin tapşırığına uyğun olaraq rayon üzrə qeyri-məşğul əhalinin ödənişli ictimai əmək fəaliyyətinə cəlb edilməsi məqsədilə 16 ədəd çoxmənzilli yaşayış binasında təmir işlərinə başlanılmış, 9756 kvm dam örtüyü dəyişdirilmiş, artıq 10 binada təmir işləri başa çatdırılmışdır.

Bundan başqa mənzil fondunun istismarı və əhaliyə göstərilən xidmətin yaxşılaşdırılması məqsədilə şəhərin F.Əmirov küçəsində 3, 19 saylı, A.Qardaşov küçəsi 11 saylı yaşayış binalarının 2302 kvm dam örtüyü əsaslı təmir edilmişdir. C.Cabbarlı küçəsi 1 və 3 saylı binaların su nasosxanası əsaslı təmir edilmişdir.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ